# KÜRDƏMİR
# 2015-ci ilə yekun vurdu

**2015-ci ilin uğurlarından, yaddaqalan hadisələrindən ətraflı danışdıqda heç şübhəsiz ki, ilk növbədə möhtərəm Prezidentimiz İlham Əliyevin sentyabr ayının 17-də rayonumuza səfərini məmnuniyyətlə qeyd etmək istəyirəm.**

Bu səfər zamanı dövlət başçısı ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək Heydər Əliyev parkında aparılmış yenidənqurma işləri ilə yaxından tanış oldu. “Bayraq meydanı”nın və “Bayraq muzeyi”nin, Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş 100 yerlik körpələr evi-uşaq bağçasının, 12 min nəfərin yaşadığı 13 yaşayış məntəqəsini birləşdirən Mollakənd- Axtaçı-Öyləqulu avtomobil yolunun, Yeni Azərbaycan Partiyasının Kürdəmir rayon təşkilatının inzibati binasının, Tarix diyarşünaslıq muzeyinin, 624 şagird yerlik Atakişili kənd tam orta məktəbinin və Ağsu-Kürdəmir avtomobil yolunun açılışını həyata keçirdi. Mollakənd-Axtaçı-Öyləqulu avtomobil yolunun açılışında rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə yenidən Kürdəmirdə olduğundan çox məmnun olduğunu bildirərək görülmüş abadlıq-quruculuq işlərinə yüksək qiymət verdi.



Ötən ilin yekunlarına həsr olunmuş hesabat yığıncağında geniş məruzə edən Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı Ceyhun Cəfərov belə dedi. O, qeyd etdi ki, dövlət başçısının sərancamı ilə 21 çoxmənzilli yaşayış binalarının əsaslı təmiri ilə əlaqədar ayrılmış 3 milyon manatla həmin işlərin görülməsinə başlanılmışdır. İcra başçısının sözlərinə görə, ümumi daxili məhsul 6 faiz artaraq 339 milyon 293 min manat təşkil etmiş, ümumi məhsul buraxılışının 72,2 faizi istehsal sahələrinin, 27,8 faizi isə xidmət sahələrinin payına düşmüşdür.

Heydər Əliyev parkında və Heydər Əliyev muzeyində yeniləmə işləri aparılmış, “Kürdəmir Taxıl” Açıq Səhmdar Cəmiyyətinin ərazisindən “Bayraq meydanı” na qədər məsafədə yolun kənarlarına 5220 poqonometr beton səki daşı düzülmüş, 62 ədəd 2 plafonlu müasir tipli işıq dirəkləri quraşdırılmışdır. “Bayraq meydanı” kompleksinin ərazisi torpaqla doldurulub hamarlanmışdır. “Bayraq meydanı”ndan şəhər istiqamətində salınmış yolun sağ və sol tərəfində yamaclara ümumilikdə 6 hektar sahədə qazon ot bitkisi, 15 mindən çox ağac və dekorativ gül kolu əkilmişdir.



“Bayraq meydanı”nın ərazisində kanalizasiya xətləri çəkilmiş, müasir tipli suvarma sistemləri quraşdırılmışdır, “Ala qapı” baş giriş qapısı tikilmiş, ərazidə 2 ədəd müasir tipli fontan qurğusu quraşdırılmışdır. Hündürlüyü 52 metr olan Bayraq dirəyi gücləndirilmiş və muzey üzərində qaldırılmışdır.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsünə qoşulduqlarını bildirən natiq dedi ki, rayonda 2 mərtəbəli 100 yerlik uşaq bağçası-körpələr evinin tikintisi başa çatdırılmış və tam şəkildə inventar və avadanlıqlarla təmin olunmuşdur.

2015-ci ildə “Qələbə parkı” yenidən qurulmuş, Yeni Azərbaycan Partiyasının Kürdəmir rayon təşkilatının 2 mərtəbəli inzibati binasının tikintisi başa çatdırılmışdır. Həmçinin, 624 şagird yerlik Atakişili kənd tam orta məktəbi istifadəyə verilmişdir.

Dövlət Proqramının icrası ilə əlaqədar 2015-ci ildə Pirili, Şilyan, Muradxan, Şahbəyli, Garıs-Əyribənd və Təklə kəndlərinin yolları çınqılla təmir edilmiş və avtoqreyderlə hamarlanmışdır. Respublika əhəmiyyətli Ağsu-Kürdəmir-Bəhrəmtəpə avtomobil yolunda və Bakı-Ələt-Qazax magistral yolunda 18640 kvadratmetr sahədə asfalt-beton qarışığı ilə çalalar təmir edilmiş, yol genişləndirilmiş, həmin yollardakı körpülər və yol nişanları rənglənmiş və körpülər yuyulmuşdur. Rayon mərkəzindəki küçələrdə 18557 kvadratmetr asfalt işi görülmüşdür. 564-ü daimi, 85-i müvəqqəti və mövsümi olmaqla 2015-ci ildə 649 nəfər işlə təmin olunmuşdur.

Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə 2015-ci ildə 24 kürdəmirli sahibkara 4783,5 min manat kreditin verilməsi nəticəsində 86 yeni iş yeri yaradılmışdır. Ötən il əhaliyə 68,8 milyon manat pullu xidmət göstərilmişdir ki, bunun da 7,6 faizi dövlət, 92,4 faizi isə qeyri-dövlət mülkiyyətinin payına düşür.

2015-ci il üçün rayon büdcəsində yerli gəlirlər planı ümumilikdə 100,9 faiz yerinə yetirilmişdir. Görülmüş tədbirlər nəticəsində ötən il 13535 ton kartof, 22260 ton tərəvəz, 65921 ton bostan, 22,3 min ton meyvə, 128 ton günəbaxan, 47 ton yerfındığı məhsulu və 71,7 min ton yonca istehsal edilmişdir. 109,2 min ton taxıl istehsal olunmuşdur ki, bunun da 38,3 min tonunu buğda məhsulu təşkil etmişdir. Taxıl istehsalının qarğıdalı dəni hesabına artırılması tədbirləri görülmüş, ötən il 821 hektarda dənlik qarğıdalı əkilmiş, 1936 tondan çox qarğıdalı dəni istehsal olunmuşdur. Toxumluq taxıl istehsalına daha diqqətlə yanaşılmış, 6 min tonadək toxumluq dən hazırlanmışdır. 39609 hektarda taxıl əkilmişdir. Əvvəlki ilə nisbətən kartofdan 2,9, tərəvəzdən 4, bostandan 41,9, günəbaxandan 0,3 sentnerdən çox məhsul götürülmüşdür. 8 toxumçuluq təsərrüfatının fəaliyyəti nəticəsində bu il rayonda 4,5 min tondan çox yüksək reproduksiyalı toxum istehsal olunmuşdur.

Məhsuldar cins heyvanların artırılması tədbirləri görülür. Lizinq yolu ilə alınmış 217 baş cins düyə artırılaraq 560 başa çatmış, süni mayalanma yolu ilə 628 baş cinsi yaxşılaşdırılmış bala alınmışdır. Cins heyvanların yüksək texnologiya ilə saxlanması təmin edilmişdir.

Hazırda Kürdəmirdə qaramalın sayı 64 min başı, qoyun-keçilərin sayı 131814 başı, quşların sayı isə 375900 başı ötmüşdür. Əvvəlki illə müqayisədə 2015-ci ildə ət və süd istehsalı 0,4, yumurta istehsalı 0,3, yun istehsalı 2,4 faiz artmışdır. Arıçılığa marağın ilbəil artması nəticəsində ötən il 108 təsərrüfatda ümumilikdə 998 arı ailəsi qeydiyyata alınmışdır. Son zamanlar rayonda narçılığın inkişafına da diqqət artırılmışdır. 3000 hektardan çox nar bağı salınmış, bu bağlardan 600 hektarı müasir texnologiya ilə becərilmişdir. 6 hektarda müasir istixana qurulmuş, əlavə 7 hektar xırda istixanalarda tərəvəz yetişdirilir. Üzümçülük və digər bitkiçilik məhsullarının istehsalı və emalının genişləndirilməsi sahəsində ardıcıl işlər aparılır. Torpaqların su təminatının yaxşılaşdırılması məqsədilə 5000 hektaradək sahəni su ilə təmin edəcək uzunluğu 18 kilometr olan beton üzlüklü Axtaçı-Ərəbqubalı kanalı, uzunluğu 22 kilometr olan beton üzlüklü Çərtəyəz-Muradxan kanalının 12 kilometri istifadəyə verilmişdir.



Sənaye müəssisələri tərəfindən 55 milyon manatlıq və ya ötən ildən 90 faiz artıq sənaye məhsulu istehsal edilmişdir. Özəl sektorun sənaye məhsulunun istehsalında çəkisi 90,8 faiz təşkil edir. Sənaye müəssisələrində çalışan işçilərin sayı 528 nəfərə, orta aylıq əmək haqqı isə 417,8 manata çatmışdır.

Məruzəçi qeyd etdi ki, ötən il 19 ədəd elektrik transformatoru əsaslı, 24 ədəd isə cari təmir olunmuş, 5,8 kilometr 10 kv-luq və 6,9 kilometr 0,4 kv-luq hava xətləri yaşıl kütlədən təmizlənmişdir. Rayonun 62 yaşayış məntəqəsindən 45-i qazlaşdırılmış, 13 məntəqədə qazlaşdırma işləri başa çatmaq üzrədir. Ümumilikdə 16743 abonent təbii qazla təmin edilmişdir. 2015-ci ildə 22 kəndə təbii qazın verilməsi nəticəsində rayon 73 faiz qazlaşdırılmışdır. Dövlət Proqramına uyğun olaraq 2015-ci ildə şəhərin Babək, Sabir küçələrində və Cənub məhəlləsində müxtəlif diametrli polietilen borularla ümumilikdə 1837 poqonometr, Babək küçəsində diametri 500 millimetrlik 1200 poqonometr uzunluğunda kanalizasiya xətti çəkilmişdir. 2015-ci ildə havaların şaxtalı keçməsi nəticəsində sıradan çıxmış 200 ədəd smart elektron tipli su sayğacı yenisi ilə əvəzlənmişdir.

Kənd əhalisinin içməli su təchizatının yaxşılaşdırılması üçün Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən 46 kənddə su təmizləyici qurğu tikilmiş, daha 15 kənddə su təmizləyici qurğuların tikintisinin aparılması üçün hazırlıq işləri görülür.

2015-ci ildə Yenikənd, Qarasu, Şilyan və Pirili kəndlərində yollar, Xırdapay kəndində tibb məntəqəsi təmir edilmişdir.

Ötən il kürdəmirli məzunlardan 186 nəfəri yüksək bal toplayaraq repsublikanın ali təhsil müəssisələrinə, 77 nəfəri orta ixtisas müəssisələrinə qəbul olunmuşdur. Bu da ötənilki göstəricidən çoxdur. Tələbə adını qazananlardan 12 nəfər 600-dən, 24 nəfər isə 500-dən çox bal toplamışdır.

Dövlət başçısının tapşırığına əsasən 2015-ci ildə 103157 nəfər tibbi müayinədən keçirilmişdir. Maddi və mədəni irsin qorunması və inkişaf etdirilməsi, əhalinin asudə vaxtının daha səmərəli təşkili, mədəni-kütləvi tədbirlərin kəmiyyət və keyfiyyətinin yüksəldilməsi istiqamətində davamlı olaraq tədbirlər həyata keçirilmişdir.

2015-ci ildə rayon icra hakimiyyəti başçısının aparatında 1884 vətəndaş qəbul edilmişdir. Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı Ceyhun Cəfərov çıxışının sonunda xüsusi vurğuladı ki, möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə yürüdülən siyasətin əsas məqsədi ölkəmizin suverenliyini ən yüksək səviyyədə təmin etməkdən və eyni zamanda, vətəndaşların daha yaxşı yaşamasına möhkəm və sağlam baza yaratmaqdan ibarətdir. Həmişə olduğu kimi, bundan sonra da kürdəmirlilər ölkə başçısının yanındadır və ölkəmizin hərtərəfli inkişafı naminə ona hər cür dəstəyi verməyə hazırdırlar.

Digər çıxış edənlər də 2015-ci ildə rayonda aparılan abadlıq-quruculuq işlərindən danışdılar və bu istiqamətin qətiyyətlə davam etdirilməsinin vacibliyini vurğuladılar. Daha sonra Prezident İlham Əliyevə müraciət qəbul edildi.

***Səməd HÜSEYNOĞLU,***
***“Xalq qəzeti” nin bölgə müxbiri***